# 20 Yanvar - qanla yazılan azadlıq dastanı

**İllər ötdükcə bütün xalqların taleyində baş vermiş ictimai proseslər tarixi hadisə statusu alır və bu hadisələrin bir qismi kollektiv yaddaşdan silinir, digərləri isə milli şüurun ayrılmaz tərkib hissəsinə çevrilir. Tarixi təcrübə göstərir ki, hər bir xalqın tarixində həm faciəli məqamlar, həm də qəhrəmanlıq səhifələri olur. Çox nadir hallarda bu iki halın eyni zaman kəsiyində baş verməsi isə istisna xarakter daşıyır.**

Azərbaycan xalqı 1990-cı ilin Yanvar hadisələrini həm kütləvi zorakılıq aktı, həm də milli müqavimət nümunəsi kimi yaşamışdır. Həmin gecə təşkilatlanmamış və hər şeydən xəbərsiz Azərbaycan xalqı ağır sınaqla üz-üzə qaldı, lakin üstünə şığıyan sovet hərbi birləşmələrinə qarşı sinəsini sipər etməyi, özünün mənliyini, siyasi iradəsini və mətnliyini nümayiş etdirməyi bacardı. Məhz həmin hadisələr sübut etdi ki, Azərbaycan cəmiyyəti hüquqi-siyasi məhdudiyyətlərə qarşı passiv mövqe tutmamış, suverenlik və ərazi bütövlüyü məsələlərini strateji prioritet kimi qəbul etmişdir. Bu baxımdan qanlı Yanvar hadisələri xalqın uzunmüddətli siyasi mübarizə potensialını üzə çıxaran tarixi mərhələ kimi qiymətləndirilir.

1990-cı ilin yanvarında Azərbaycan dərin siyasi və ictimai gərginlik şəraitində fəaliyyət göstərirdi. Keçmiş SSRİ rəhbərliyinin 1980-ci illərin sonlarından etibarən Ermənistanın Azərbaycana qarşı irəli sürdüyü əsassız ərazi iddialarına adekvat reaksiya verməməsi, Dağlıq Qarabağ bölgəsində separatçı fəaliyyətin qarşısının alınmaması və etnik zəmində baş verən zorakılıq hallarına faktiki olaraq müdaxilə etməməsi vəziyyəti sistemli şəkildə kəskinləşdirmişdir. 1989-cu ildə SSRİ Ali Sovetinin qərarı ilə Dağlıq Qarabağ Muxtar Vilayətində yaradılmış Xüsusi İdarə Komitəsinin fəaliyyəti Azərbaycan Respublikasının suveren hüquqlarını məhdudlaşdırmış, vilayətin idarəetmə strukturlarının mərhələli şəkildə respublikanın hüquqi nəzarətindən çıxarılmasına gətirib çıxarmışdır. Moskvanın bu proseslər fonunda erməni separatçılarına açıq və dolayı dəstək göstərməsi, Azərbaycan tərəfinin siyasi və inzibati imkanlarını iflic vəziyyətinə salmışdır. Nəticədə, cəmiyyətdə mərkəzi hakimiyyətə qarşı narazılıq artmış, milli azadlıq hərəkatı geniş kütləvi xarakter almışdır.

1987-ci ildən etibarən Azərbaycan və Ermənistan arasında formalaşan münaqişə təsadüfi və lokal xarakter daşımamış, XIX-XX əsrlər boyunca Azərbaycan torpaqlarında aparılmış planlı məskunlaşdırma siyasətinin, habelə azərbaycanlı əhaliyə qarşı həyata keçirilmiş etnik təmizləmə və kütləvi zorakılıq siyasətinin növbəti mərhələsi olmuşdur. Bu proseslər regionda uzunmüddətli sabitliyi pozan əsas amillərdən birinə çevrilmişdir.

1990-cı il yanvar hadisələrindən dərhal sonra Moskvadakı Azərbaycan nümayəndəliyinə gələn Ulu Öndər Heydər Əliyev verdiyi açıqlamalarda münaqişənin idarə olunmamasını və siyasi məsuliyyət məsələsini xüsusi vurğulamışdır. Onun qiymətləndirməsinə görə, Azərbaycan və Ermənistan arasında artıq iki il davam edən qarşıdurmanın qarşısını almaq üçün həm respublika, həm də ittifaq səviyyəsində kifayət qədər vaxt və imkan mövcud olmuşdur. Lakin bu müddət ərzində münaqişənin qarşısının alınması, gərginliyin azaldılması və millətlərarası toqquşmaların genişlənməsinin önlənməsi istiqamətində zəruri tədbirlər həyata keçirilməmişdir. Heydər Əliyev xüsusilə qeyd etmişdir ki, Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində adekvat siyasi qərarlar qəbul edilsəydi, vəziyyət silahlı müdaxilə mərhələsinə çatmaz və 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecəsində baş verən kütləvi insan tələfatının qarşısı alınardı.

Bu kontekstdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin sabiq birinci katibi Əbdürrəhman Vəzirovun fəaliyyəti tənqidi şəkildə dəyərləndirilmişdir. Onun rəhbərlik etdiyi dövrdə respublikada sabitliyin təmin olunması üçün real addımlar atılmamış, əksinə, yanlış idarəetmə üsulu və uğursuz siyasi qərarlar cəmiyyətlə hakimiyyət arasında dərin etimadsızlıq yaratmışdır. Bu etimadsızlıq Bakıda və respublikanın digər bölgələrində uzunmüddətli kütləvi etiraz aksiyalarında partiya rəhbərliyinin istefası tələblərinin irəli sürülməsi ilə açıq şəkildə ifadə olunmuşdur.









1989-cu ilin sonlarına doğru Azərbaycan cəmiyyətində SSRİ-nin mövcud siyasi mexanizmləri çərçivəsində problemin həllinin mümkün olmadığı qənaəti formalaşmışdır. Bir sıra rayonlarda Xalq Cəbhəsinin yerli idarəetməyə nəzarəti ələ alması, Naxçıvanda SSRİ-İran sərhədində mühəndis maneələrinin aradan qaldırılması, hərəkatın radikal qanadının Milli Müdafiə Şurası yaratması mərkəzi hakimiyyət tərəfindən təhlükə kimi qiymətləndirilmişdir. Bu proseslər Moskva üçün Azərbaycanın faktiki olaraq ittifaqdan ayrılmaq istiqamətində hərəkət etdiyini göstərirdi.

SSRİ rəhbərliyi yaranmış vəziyyəti siyasi dialoq yolu ilə tənzimləmək əvəzinə, hərbi güc tətbiqini seçmişdir. M.Qorbaçovun rəhbərlik etdiyi mərkəzi hakimiyyət Bakını azadlıq hərəkatının əsas mərkəzlərindən biri kimi qiymətləndirərək, onu nəzarət altına almaq məqsədilə genişmiqyaslı silahlı əməliyyat planı hazırlamışdır.

Belə ki, hələ 1989-cu ilin yayından başlayaraq Bakı şəhərinə əlavə hərbi kontingentin yeridilməsi ilə bağlı mərkəzi hakimiyyət qarşısında məqsədli təşəbbüslər irəli sürülmüşdür. Azərbaycan KP MK-nın birinci katibi Əbdürrəhman Vəzirovun, Nazirlər Sovetinin sədri Ayaz Mütəllibovun, Azərbaycan KP MK-nın ikinci katibi Viktor Polyaniçkonun və Azərbaycan SSR daxili işlər nazirinin birinci müavini Viktor Varannikovun imzası ilə SSRİ rəhbərliyinə şifrəli telefonoqramlar göndərilmişdir. Bu müraciətlərdə respublikadakı ictimai-siyasi vəziyyətin guya nəzarətdən çıxdığı əsas gətirilmiş və hərbi qüvvələrin cəlb olunması zəruri hal kimi təqdim edilmişdir.

İstintaq materiallarına əsasən, 1990-cı il yanvar ayının ortalarına qədər SSRİ Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin və xüsusi təyinatlı hərbi birləşmələrin tərkibində olan 66 mindən artıq əsgər və zabit Bakı şəhərinə gətirilmişdir. Bu qüvvələr Qala və Nasosnu aerodromlarında, Respublika stadionunda, eləcə də Salyan kazarmasında dislokasiya olunmuşdur. Hərbi hissələrin tərkibinin formalaşdırılması zamanı Stavropol, Rostov və Krasnodar vilayətlərindən səfərbər edilmiş şəxslərə üstünlük verilmiş, həmçinin hərbi məktəblərdə təhsil alan erməni kursantları və erməni mənşəli hərbi qulluqçular əməliyyatlara cəlb edilmişdir.

20 yanvar hadisələrindən iki gün sonra keçirilmiş Azərbaycan KP MK-nın 24 yanvar 1990-cı il tarixli plenumunda yazıçı və publisist İsmayıl Şıxlı baş verənləri əvvəlcədən planlaşdırılmış hərbi-siyasi əməliyyat kimi qiymətləndirmişdir. O, müdafiə naziri Dmitri Yazov tərəfindən elan edilmiş səfərbərliyin real təhlükəsizlik zərurəti ilə izah oluna bilmədiyini vurğulamış, Bakıda mütəşəkkil silahlı qüvvələrin və ya strateji hərbi obyektlərə qarşı real təhlükənin mövcud olmadığını qeyd etmişdir. Şıxlıya görə, səfərbərliyin məhz Rostov, Stavropol və Krasnodar kimi regionlarda aparılması təsadüfi xarakter daşımamış, etnik tərkib amili nəzərə alınaraq planlaşdırılmışdır. "..Nə üçün general Yazov səfərbərliyi Rostov, Stavropol, Krasnodar vilayətlərində elan etdi? Ukraynada edə bilməzdimi? Generallar və onların ağaları nə qədər gizlətsələr də, xoruzun quyruğu görünür. Onlar həmin vilayətlərdə məhz erməniləri səfərbərliyə aldılar. Əsgər paltarları geyindirib Bakının üstünə göndərdilər və dinc əhalini qırdırdılar. Bu, xalis genosid deyil, bəs nədir?"- deyə İ.Şıxlı öz fikirlərini hərarətlə bildirmişdir". Bu çıxışda səslənditilən mövqe yanvar hadisələrinin spontan qərar deyil, əvvəlcədən hazırlanmış, siyasi məqsədlərə xidmət edən hərbi müdaxilə olduğunu göstərən mövcud faktlarla üst-üstə düşür və əməliyyatın planlaşdırılmasında etnik seleksiya elementlərinin iştirak etdiyi ehtimalını gücləndirir.

Respublikaya yeridilmiş hərbi kontingentin, habelə əməliyyatların idarə olunması məqsədilə Bakıya ezam olunmuş 300-dən artıq yüksək rütbəli zabit və generalın maddi-texniki təminatı yerli resurslar hesabına həyata keçirilmişdir. Bu təminata şəxsi heyətin ərzaqla təchizatı, nəqliyyat vasitələrinin ayrılması, yanacaq və digər logistik ehtiyacların ödənilməsi daxil olmuş, müvafiq xərclər Azərbaycan SSR-in büdcəsi hesabına qarşılanmışdır. Beləliklə, mərkəzi hakimiyyət tərəfindən planlaşdırılmış hərbi əməliyyatın maliyyə yükü faktiki olaraq respublikanın üzərinə qoyulmuşdur.

1990-cı il yanvarın 15-də SSRİ Ali Sovetinin sədri M.Qorbaçov Dağlıq Qarabağ Muxtar Vilayətində və respublikanın bəzi digər ərazilərində fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında fərman imzalamışdır. Həmin sənədin 7-ci bəndində Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinə Bakı və Gəncə şəhərləri də daxil olmaqla, ayrı-ayrı yaşayış məntəqələrində komendant saatının tətbiqi və digər zəruri tədbirlərin görülməsi tövsiyə edilmişdir. Bununla belə, göstərilən prosedurlar hüquqi ardıcıllıqla icra edilməmişdir.

Araşdırmalar nəticəsində müəyyən olunmuşdur ki, SSRİ Ali Sovetinin Rəyasət Heyəti 1990-cı il yanvarın 19-da hüquqi qüvvəsi olmayan, guya 15 yanvar tarixində qəbul edilmiş qərara istinad edərək, yanvarın 20-si saat 00:00-dan etibarən Bakı şəhərində fövqəladə vəziyyətin tətbiqi barədə fərman qəbul etmişdir. Bu qərar fövqəladə vəziyyətin elan edilməsinə dair konstitusion tələblərə əməl edilmədən, əhali əvvəlcədən məlumatlandırılmadan qüvvəyə minmişdir.

Hüquqi qiymətləndirmə göstərir ki, sözügedən fərmanın imzalanması ilə keçmiş SSRİ rəhbəri M.Qorbaçov İttifaq Konstitusiyasının 119-cu maddəsini və Azərbaycan SSR Konstitusiyasının 71-ci maddəsini kobud şəkildə pozmuş, fövqəladə vəziyyətin tətbiqi zamanı qanunvericiliklə nəzərdə tutulmuş səlahiyyət bölgüsünü və prosedur normalarını nəzərə almamışdır. Bu hal yanvar hadisələrinin hüquqi əsaslardan məhrum, siyasi qərar kimi həyata keçirildiyini təsdiqləyən mühüm faktorlardan biri hesab olunur.

*(ardı var)*

***Gülşən HÜSEYNOVA***
***Azərbaycan Hərb Tarixi Muzeyinin əməkdaşı, ADMİU-nin müəllimi***